**UOT 666.3:947.011+04:39(479.24)**

# GƏNCƏBASARIN ANTİK VƏ İLK ORTA ƏSRLƏR DÖVRÜ SAXSI MƏMULATININ TARİXİ – ETNOQRAFİK TƏDQİQİ

**N.M.QULİYEVA*, E.L.HƏSƏNOV****
***Bakı Dövlət Universiteti****
***AMEA Gəncə Regional Elmi Mərkəz*****
***el-hasanov@mail.ru***

*Bu elmi məqalədə ilk dəfə olaraq Gəncəbasarın antik və ilk orta əsrlər mərhələsinə aid dulusçuluq nümunələrinin mühüm dekorativ-naxışlanma cəhətləri, həmçinin konstruktiv-plastik forma xüsusiyyətləri sistemli surətdə etnoqrafik baxımdan tədqiq edilmişdir.*

*Həmçinin bəhs olunan dövrə aid Gəncə dulusçuluğunun inşaat keramikası, şirli və şirsiz saxsı məmulatları kimi səciyyəvi növlərinin fərqləndirici sənətkarlıq cəhətləri əsaslı şəkildə araşdırılmışdır.*

**Açar sözlər:** saxsı məmulatları, antik və ilk orta əsrlər dövrü, etnoqrafik tədqiqat, Gəncə və Gəncəbasar

Antik mərhələdə Gəncə dulusçuluğunun nümunələri özünün bədii tərtibatı, konstruktiv-plastik formalarının müxtəlifliyi, dekorativ-ornament xüsusiyyətlərinin çoxçeşidliliyi və nəfisliyi ilə seçilən qablarla təmsil olunmuşdur. Bu tarixi dövrə aid keramik qabların səciyyəvi xüsusiyyəti bədii keyfiyyətliliyin saxsı məmulatlarında geniş surətdə tətbiq edilməsidir. Gəncə dulusçuluğunun bəhs olunan antik mərhələyə, o cümlədən ellinizm dövrünə aid nümunələrinin konstruktiv baxımdan formaları fərqli çeşidləri ilə seçilir.

Dövrün mühüm bədii keramika məmulatları sırasında bədii vazaların xüsusi yeri vardır. Bu saxsı qabların dekorativ xüsusiyyətləri, təsərrüfat fəaliyyəti ilə yanaşı, ayrı-ayrı dini ayin və mərasimlərin icrası zamanı istifadə edilməsi, rəng və forma cəhətləri onların mühüm xüsusiyyətləri hesab olunur.

Fiqurlu keramika tipli bədii dulusçuluq nümunələri müxtəlif canlıların, ev və vəhşi heyvanların formasında hazırlanması ilə seçilir. Fiqurlu keramik məmulatların bir qismi bütövlükdə heyvan, quş və insan bədənini tam göstərmək şərtilə hazırlanmış, digər bir qisminin isə yalnız ayrı-ayrı hissələri (qulp, gövdə, boğazcıq hissələri) canlıların təsviri ilə tamamlanır.

Elmi ədəbiyyatda iki və ya daha çox bədii dulusçuluq qabının ümumi konstruksiya əsasında birləşdirilmiş formada hazırlanması ilə səciyyələnən ke-

ramika nümunələri əlaqəli qablar adlandırılır. Bu qabların mühüm səciyyəvi xüsusiyyətləri onların açıq çəhrayı rəngə malik olması, bir sıra hallarda tünd qırmızı, qəhvəyi, boz və qara rəngli olması, həmçinin xarici səth hissəsinin fərqli və rəngarəng ornament motivləri ilə bəzədilməsi, daxili (yaxud içəri) hissəsində bəzi ştrix, yaxud cızma elemetlərindən istifadə edilməsi hesab olunur (1,133).

Bəhs edilən dövrdə Gəncə və Gəncəbasarla yanaşı, ölkəmizin müxtəlif bölgələrinin tarixi-arxeoloji abidələrindən aşkar edilmiş nümunələr əsasında sübuta yetirilmişdir ki, fərqli naxışlara, forma və işlənmə üslubuna malik bir sıra yeni dulusçuluq qabları meydana gəlmişdir. Qədim yunan asklarına bənzəyən və eyni məqsəd üçün (maye saxlanılması üçün) istifadə olunan matralar, oynoxoyalar (iri həcmli olmaları ilə seçilən şərab piyalələri), kanfar tipli saxsı qablar, tək ağızlı vazalar, lüləkli qablar, üç ağızlı vazalar və digər qablar bu tip məmulatlardır (2; 3,30).

İlk orta əsrlər dövründə isə Gəncənin dulus məmulatı 2 mühüm xüsusiyyətinə görə antik mərhələyə aid keramika nümunələrindən fərqlənir:

1. Malik olduğu formasına görə.
2. Hazırlanma texnikasına görə.

Ümumiyyətlə, orta əsrlərdə çaylardan çəkilmiş arxlar yeni torpaqların becərilməsinə şərait yaratmaqla yanaşı, sənətkarlığı, o cümlədən dulusçuluğu inkişaf etdirmək üçün də əlverişli imkan verirdi. Bir sıra saxsı qablar özündən əvvəlkilərdən fərqli olaraq ayaqla hərəkətə gətirilən dulus dəzgahında hazırlanmışdır. Qeyd edilən saxsı nümunələrinin üzərinə rəngli şir (yaxud şirə) çəkilməsi diqqəti cəlb edir.

İlk orta əsrlər dövrünün dulusçuluq nümunələri içərisində üzərində sənətkar möhürləri olan qablar həm də bu mərhələdə sənətkarlıqda ixtisaslaşmanın gücləndiyini sübuta yetirir. Həmçinin, Gəncədə əmək və sənət bölgüsünün artdığı, dulusçu sənətkarların ayrıca təmsil olunduqları tarixi-etnoqrafik şəhərsalma vahidi- Dulusçular məhəlləsinin yaratdığı və müəyyən tarixi mərhələdə mövcud olduğu da təkzibedilməz faktlar olaraq qəbul edilməlidir (4,211).

Dövrün saxsı nümunələri özünün bir sıra mühüm xüsusiyyətlərinə - rənginə, gilinin narınlığına və s. görə kirəmit və su tüngləri ilə eyniyyət təşkil edir. İlk orta əsrlər mərhələsinin gil məmulatına təndir badları, kərpiclər də daxil edilir.

Orta əsrlər mərhələsinin keramika nümunələrinin şirlənməsi üçün səciyyəvi hesab olunan əsas texnoloji üsul və vasitələri Gəncə və Gəncəbasarın dulusçuluq qabları üçün də tətbiq edilmişdir. Daha doğrusu, saxsı qablara şir (yaxud şirə) vurmaq üçün əvvəlcə anqobdan (astardan), sonralar isə qurğuşun oksidindən istifadə edilirdi.

Bu metodun sayəsində saxsı qablar həm daha davamlı, həm də parlaq olurdu. Süfrə mətbəx qabları istər daxili (içəri), istərsə də bayır (xarici səth) tərəfdən şirələnirdi. Digər saxsı nümunələri isə, əsasən yalnız çöl tərəfdən şirələnirdi. Qazıntılar, tədqiqat işləri sübut edir ki, istər ilk orta əsrlər dövrünün əvvəllərində, istərsə də artıq IX-X əsrlərdə Gəncə və onun yaxın ərazilə-

rində həm anqoblanmış, həm də anqob (astar) çəkilməmiş dulusçuluq nümunələrindən istifadə olunmuşdur.

Bəhs edilən tarixi mərhələnin mühüm xüsusiyyətlərindən biri budur ki, yalnız şəffaf şir (şirə) altında olan anqob naxışlı deyil, marqans naxışlı qablardan da geniş surətdə istifadə edilmişdir. IX-X əsrlər ərzində monoxrom şirli qablara yaşıl, marqans və firuzəyi rəngli şirələr çəkilmişdir. Yaşıl şirlərin bəziləri parlaq, digərləri isə tutqun rənglidir. Bu da qablara anqobun çəkilib-çəkilməməsindən asılıdır.

Qabların üzərində yarpaq, gül, ağac və digər nəbati şəkillər çəkilmişdir. Qeyd edilən dövrə aid saxsı məmulatları içərisində az miqdarda polixrom qablar da vardır. Bu cür qablar qurudulduqdan sonra kürədə azacıq bişirilir, sonra üzərinə marqans, dəmir, mis, qalay oksidləri çəkilirdi. Metal oksidlərinin köməyi ilə qablar üzərində müxtəlif bəzəklər çəkilirdi (5,188; 6,66-70).

Qeyd etmək lazımdır ki, bəhs olunan dövrün şirli (şirələnmiş) saxsı məmulatları içərisində kasalar, həmçinin boşqab tipli keramik nümunələr xüsusilə fərqlənir. Bu qablar halqavari oturacağa və alçaq dabana malik olması ilə seçilir.

Bundan əlavə, ilk orta əsrlər dövrünün son mərhələlərinə doğru (daha doğrusu, X-XII əsrlər) şirli qab istehsalının daha sürətli inkişafı müşahidə edilmiş və bunun nəticəsi olaraq ölkəmizin bir sıra bölgələrində olduğu kimi, Gəncədə də yalnız xırda və yaxud orta həcmli dulusçuluq məmulatları deyil, hətta iri küplərin də müəyyən qismi şirlə örtülürdü.

Nəzərə alınmalıdır ki, bu iri həcmli saxsı nümunələri əksər hallarda bütövlükdə deyil, yalnız müəyyən hissələrinə tətbiq edilməklə şirlənirdi. Sonrakı tarixi mərhələlərdə isə qabların marqans şiri çəkilməklə həm də naxışlanması texnikası geniş yayılmışdır.

Şirsiz saxsı məmulatı isə başlıca olaraq məişət qabları, təsərrüfatda istifadə edilən saxsı nümunələri və uşaq oyuncaqlarından ibarətdir. Buraya bardaqlar, kuzələr, qazanlar, küpələr (küplər), çayniklər (çaydanlar), çıraqlar və duz qabları, eləcə də oyuncaqlardan və möhürlərdən ibarət gil məmulatları daxildir.

Qeyd etmək lazımdır ki, qazanlar bu dövrə aid gil məmulatları içərisində əksəriyyət təşkil edir. Bəzi qazanların oturacaq hissəsi bir qədər yastı, digər bu tip saxsı nümunələrininki isə yarımşar formalıdır.

İlk orta əsrlərin X-XI əsrləri əhatə edən mərhələsində dəzgahda hazırlanmış vahid biçimli qazanlar çoxalmışdır və özündən əvvəlki dövrün əl ilə hazırlanmış kobud qazanlarından əsaslı surətdə fərqlənir. Bu saxsı nümunələrinin ağız hissəsinin diametri 26-44 sm, su tutumu 4 litrdən 6 litrə qədər olmuşdur. Bir fakta diqqəti yönəltmək lazımdır ki, bu cür dulusçuluq nümunələri yalnız müxtəlif yaşayış yerlərindən aşkar edilmişdir (7,124-128).

Haqqında bəhs edilən qazanlar istər konstruktiv quruluşu, istərsə də dekorativ xüsusiyyətləri baxımından diqqətəlayiq nümunələrdir. Belə ki, yeni tip hesab edilən qazanlarda qulpların sayının artdığı müşahidə edilir. Eyni zamanda, qabların üzəri bir qayda olaraq, cızma dalğavari və düz xətlərlə çərtmə və deşmə (yaxud deştəkləmə) üsulları ilə naxışlanmışdır.

Dövrün səciyyəvi dulusçuluq nümunələrindən hesab edilən küplər isə əvvəlki mərhələlərdəkindən əsaslı surətdə fərqlənmir. Bu küplər də qabarıq gövdəyə, qısa və uzun boğaz hissəsinə malikdir.

Bardaq adlanan dövrün səciyyəvi dulusçuluq məmulatları geniş istifadə edilmiş məişət qabları hesab olunur. Əsasən su qabları kimi istifadə olunan bardaqların gövdə hissəsi armudvari formaya malik olması ilə seçilir. Bu saxsı nümunələrinin formasında bir qulpun mövcudluğu, ağız hissəyə doğru qıfı xatırladan quruluşun özünü büruzə verməsi diqqətəlayiq cəhətdir. Bardaqların əksəriyyəti naxışsız və boyaqsızdır.

Dövrün mühüm keramika nümunələri içərisində çaydanvari (çaynikvari) qablar və çıraqlar xüsusi yer tutur. İlk orta əsrlər dövrünə aid yaşayış yerlərindən aşkar olunmuş çaydan formalı saxsı qablar kiçik həcmli olması, yastı oturacağa malik olması ilə fərqlənir. Bu qabların fiziki ölçüləri aşağıdakı kimi olmuşdur:

Hündürlüyü - 16 - 40 sm;

Gövdəsinin diametri - 15 – 40 sm.

Gil möhürlər və oyuncaqlar, çıraqlar ilk orta əsrlər mərhələsinin müxtəlifliyi ilə seçilən dulusçuluq məmulatları hesab olunur. Bu dövrə aid çıraqlar yerli əhali arasında həm də “qara çıraq” adlandırılmışdır və ölçüləri heç də bütün nümunələrdə eyni deyildir. Çıraqların səciyyəvi xüsusiyyətləri fitil qoymaq üçün kiçik boğazlara malik olmalarıdır. Ehtimal edilir ki, Gəncə və Gəncəbasarın ilk orta əsrlər dövrünə aid müxtəlif tarixi-arxeoloji abidələrindən (əsasən yaşayış yerlərindən) aşkar edilmiş bu tip çıraqlarda əvvəllər yağ, sonralar isə neft yandırılmışdır (6, 67; 8, 369).

Möhürlərə gəldikdə isə, qeyd etmək lazımdır ki, bu saxsı nümunələri dulusçu ustalara məxsus olmuşdur. IX-X əsr bəzəkləri içərisində qələmlə çəkilmiş konsentrik dairələrə, medalyonlara, gül və yarpaqşəkilli bəzəklərə, quş və heyvan təsvirlərinə daha çox rast gəlinir. Qablara vurulan batıq naxışlar (ornamentlər) isə daha çox XI- XIII əsrlərin yeni bəzəklərindən hesab olunur.

İlk orta əsrlərə aid oyuncaqlar da həmçinin bəhs edilən tarixi mərhələnin səciyyəvi saxsı nümunələrindən hesab olunur. Maraqlıdır ki, bu dövrün oyuncaqları yalnız gildən deyil, ağacdan, sümükdən, metaldan, eləcə də kağızdan və digər materiallardan hazırlanmışdır.

Gəncənin qədim gil oyuncaq nümunələrinin əsas növləri bunlardır:

1.Şaxşaxalar.

2.Zoomorf fiqurlar.

3.Kiçik qab-qacaqlar.

Şaxşaxalar isə, öz növbəsində kiçik bardaq tipli gil qablardan və zoomorf fiqurlardan ibarətdir. Qeyd olunan gil oyuncaqların səs verməsi məqsədilə bu qabların içərisinə xırda daşlar doldurulurdu. Şaxşaxa tipli gil oyuncaqların rəngi, əsasən bozumtuldur. Bəzi bu tip saxsı nümunələri kobud olması ilə seçilir və onların üzərində barmaq izləri vardır.

Beləliklə, qeyd olunan dulusçuluq nümunələrinin təfsilatlı elmi tədqiqi vətənimizin etnoqrafiya tarixinin öyrənilməsinə dəyərli töhfədir.

## ƏDƏBİYYAT

1. Кулиева Н.М., Гасанов Э.Л. О развитии художественной керамики в древней Гяндже (I тысячелетие до н.э.- I век н.э.) / Материалы международной заочной научно-практической конференции – Вопросы общественных наук: социология, политология, философия, история. Новосибирск: Априори, 2011, с. 132-135.
2. Burton –Brown T. Excavations in Azerbaijan, 1948. London: Cambridge Press , 1951, 240 p.
3. Кулиева Н.М., Гасанов Э.Л. Об историко-этнографическом исследовании художественной керамики Гянджи эллинистического периода // Научный журнал Молодой ученый, 2011, № 4, том II, с. 29-31.
4. Quliyeva N.M., Həsənov E.L. Gəncənin qədim və antik dövr saxsı məmulatlarının öyrənilməsində biokimyəvi innovasiya texnologiyalarının tətbiqinə dair / Biokimyəvi nəzəriyyələrin aktual problemləri mövzusunda II Beynəlxalq elmi konfransın materialları. Gəncə: GDU, 2011, I hissə, s. 210-213.
5. Həsənov E.L. Gəncəbasarda ilk dəmir dövründə duluşçuluq sənətinin inkişafına dair // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, 2011, № 2, s. 185-191.
6. Azərbaycan incəsənəti. VIII cild, Bakı: Elm, 1959, 276 s.
7. Azərbaycan arxeologiyası: 6 cilddə,VI c., Bakı: Şərq-Qərb, 2008, 632 s.
8. Azərbaycan etnoqrafiyası: 3 cilddə, I c., Bakı: Şərq-Qərb, 2007, 544 s.


## ИСТОРИКО-ЭТНОГРАФИЧЕСКОЕ ИССЛЕДОВАНИЕ ГЛИНЯНЫХ ИЗДЕЛИЙ ГЯНДЖАБАСАРА АНТИЧНОГО И РАННЕГО СРЕДНЕВЕКОВОГО ПЕРИОДОВ


**Н.М.КУЛИЕВА, Э.Л.ГАСАНОВ**



### РЕЗЮМЕ

Впервые в данной научной работе были систематически исследованы основные характерные декоративно-орнаментальные особенности, а также конструктивно-пластические формы керамических образцов Гянджабасара античного и раннего средневекового периодов с этнографической точки зрения.

Также были основательно изучены отличительные ремесленные черты таких характерных видов гончарного дела Гянджи данного периода как строительная керамика, глазурные и неглазурные глиняные изделия.



**Ключевые слова:** глиняные изделия, античный и раннесредневековый периоды, этнографическое исследование, Гянджа и Гянджабасар


## HISTORIC-ETHNOGRAPHICAL RESEARCH OF POTTERY WARES OF GANJABASAR FOR CLASSICAL AND EARLY MEDIEVAL PERIODS


**N.M.GULIYEVA, E.L.HASANOV**



### SUMMARY

The present paper is the first to investigate systematically the basic typical decorative-ornamental characteristics, and constructive-plastic forms of ceramic patterns of Ganjabasar for classical and early medieval periods from ethnographical point of view.

The distinguishing handicraft features of such typical kinds of Ganja ceramics of this period as construction pottery, enamel and unenamel ceramic wares are profoundly researched as well.



**Key words:** pottery wares, classical and early medieval periods, ethnographical research, Ganja and Ganjabasar